# *PEDAQOJİ ELMLƏR*

## Müəllimin şəxsi və peşə keyfiyyətləri

**Lalə Adil qızı Əliyeva**
*"Odlar yurdu" Universitetinin baş müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** shabnam.edu@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** müəllim, müəllim şəxsiyyəti, şəxsi keyfiyyətlər, müəllimin şəxsi keyfiyyətləri, peşə keyfiyyətləri, müəllimin peşə keyfiyyətləri

**Ключевые слова:** учитель, личность учителя, личностные качества, личностные качества учителя, профессиональные качества, профессиональные качества учителя

**Key words:** teacher, teacher's personality, personal qualities, teacher's personal qualities, professional qualities, teacher's professional qualities

Ümummilli liderimiz Heydər Əliyev müəllim əməyini son dərəcə yüksək qiymətləndirirdi. Ulu öndərin sözləridir: "Mən dünyada müəllimdən yüksək ad tanımıram. Bizim hər birimiz məktəbə, müəllimə borcluyuq. Həyatını müəllimliyə həsr edən insanlar fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır" (1).

Müəllimlik peşəsinə, müəllimin şəxsi keyfiyyətinə yüksək önəm verən, bu peşənin çox şərəfli, çətin və məsuliyyətli olduğunu vurğulayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirir: "Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar" (2).

Həmin sözlərdə dərin həqiqət vardır.

Müəllimin pedaqoji vəzifələri çoxcəhətlidir. Onun gözləri qarşısında, onun iştirakı ilə şəxsiyyətin sosial təşəkkül taparaq formalaşması prosesi gedir. Təhsil ocağında məktəblilərə aid olan elə bir məsələ ola bilməz ki, onun həllində pedaqoji kollektivin üzvləri, ayrı-ayrı müəllimlər, sinif rəhbərləri iştirak etməsin. Müəllim təlim-tərbiyəsi ilə məşğul olduğu, bu işi özünün müqəddəs borcu hesab etdiyi şagirdlərlə daimi çoxcəhətli ünsiyyət imkanına malik olur. Öz yetirmələrinin şəxsiyyətinin sosial-əqli inkişafında iştirakçı olmaq heç bir şeylə müqayisə edilməyən mənəvi zövqdür.

Müəllimə verilən əsas peşə tələbi – inkişaf etmiş şəxsiyyətin başlıca göstəricisi sayılan *ideya inamı, ideya əqidəsidir*.

Müəllim *təşkilatçılıq* qabiliyyətlərinə yiyələnməlidir. Müəllim təkcə dərs deməklə, ixtisası üzrə şagirdlərini biliklərlə, həyati bacarıqlarla və vərdişlərlə silahlandırmaqla, onlara zəngin dünyagörüşü aşılamaqla öz fəaliyyətini məhdudlaşdırmamalıdır. Bir çox müəllimlər eyni zamanda sinir rəhbəri funksiyasını da yerinə yetirirlər. Fənn müəllimi, yaxud sinif rəhbəri kimi təlimdən sonra onların asudə vaxtlarının səmərəli təşkilində də yardımçı olurlar. Müəllim (sinif rəhbəri) sinifdənxaric və məktəbdənkənar tərbiyə-təlim işlərinin təşkili və həyata keçirilməsi sahəsində bacarıqlara da yiyələnməlidir. Başqa sözlə, bu sahədə onun təşkilatçılıq qabiliyyətləri olmalıdır. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təhsilləndirici, tərbiyələndi-

rici və inkişafetdirici funksiyalarını diqqət mərkəzində saxlamalıdır.

Müəllimin təşkilatçılıq sahəsindəki səriştəliliyinin mənası bunla səciyyəvidir ki, şagirdlərin bir çoxunda fəaliyyətin və öz həyatının təşkilində iştirak etmək tələbatı formalaşdırsın.

Müəllim şagirdlərə münasibətdə *nikbin* olmalıdır. Bu və ya digər şagirdin davranışında, rəftar və ünsiyyət tərzində nöqsanlar baş verdikdə, o, təlimdə yetirmədikdə bədbinliyə qapılmamalı, şagirdin "düzəlməz", "yolagəlməz", "küt", "bacarıqsız" olması fikrinə düşməməli. Özünü inandırmalıdır ki, bu şagird də yaxşı oxuya, nümunəvi davranış və rəftara yiyələnə bilər. Sadəcə, müəllimin bir qədər özünü əziyyətə salması, həmin məktəbli ilə məqsədyönlü, sistemli iş aparmalı, onun özündə özünə inam hissi yaratmalı, onun özünütərbiyəsinə nail olmalıdır.

Müəllimin peşə keyfiyyətləri üçün məktəbdə, şagirdlərin həyatında, müəllim-şagird münasibətlərində *yaranmış vəziyyətlərdən baş çıxarmaq* və *onları həll edə bilmək bacarığına* malik olmaq da böyük əhəmiyyət daşıyır. Təcrübəli, səriştəli müəllim şagirdlərin təlim fəaliyyətinə biganə qalmamalı, onu dərsə həvəsləndirməli, eyni zamanda dərsdənkənar işləri ilə maraqlanmalıdır.

Müəllim *hövsələli, səbirli, təmkinli* olmalı, yersiz özündən çıxaraq şagirdlərlə qarşılıqlı münasibətləri kotrlamamalıdır. O, həzrəti Məhəmməd peyğəmbərin "Qüvvətli adam güləşəndə qalib gələn deyil, qəzəblənən vaxtı qəzəbini boğa biləndir" (3, s. 21) sözlərini yadda saxlamalı və ona əməl etməlidir.

Müəllim təkcə şagirdlərlə deyil, eyni zamanda istər-istəməz tərbiyə prosesinə qoşulan valideynlərlə də ünsiyyət bağlamağı, onlarla dil tapmağı bacarmalıdır.

Müəllim məktəblilərlə işgüzar və dostcasına ünsiyyətə malik olmalı, onları doğma övladları kimi sevməli ("Sən bir ata kimi hərəkət etmirsənsə, müəllim kimi fəaliyyət göstərə bilməzsən" - Y.A. Komenski), şagirdlərin necə oxumasından, necə davranmasından asılı olmayaraq, arasında fərq qoymamalı, ayrı-seçkilik salmamalıdır. Təhsilalanları hər xırda məsələyə görə uzun-uzadı danlamaqdan vaz keçmək, onları bezdirməmək lazımdır. Xüsusən şagirdi başqalarının qarşısında tez-tez danlamaq olmaz.

Deməli, müəllimin başlıca peşə və şəxsi keyfiyyətləri sırasına həm də *özünənəzarət* daxildir. Özününəzarət, sözsüz, özünü idarə edə bilməyi nəzərdə yuyur.

Müəllim öz ixtisasını yaxşı bilməlidir. İxtisasını deyəndə, söhbət onun dərs dediyi fənnini yaxşı bilməsindən gedir. Bu sahədə ali təhsil müəssisəsində necə, hansı səviyyədə təhsil almasından və ixtisasına hansı dərəcədə sahib olmasından, öz üzərində yorulmadan çalışmasından gedir.

Müəllim pedaqoji ustalığa yiyələnməlidir. Belə müəllimə "Usta müəllim", "Ustad müəllim" deyirlər.

Prof. A.N. Abbasov "Pedaqogika" dərs vəsaitində müəllimin şəxsi və peşə keyfiyyətlərinə münasibət bildirmişdir. Professorun qənaətincə, "sinfin mənəvi və psixoloji atmosferini tənzimləyən və idarəetməni yaxşılaşdıran amildir. Bu sahədə müəllimin pedaqoji qabiliyyətləri, pedaqoji ustalığı, biliyi, nəzəri və metodik hazırlığı ilə yanaşı, onun müsbət mənəvi keyfiyyətlərə yiyələnməsi əhəmiyyətli rola malikdir" (4, s. 318-319).

Professor müəllimin şəxsi və peşə keyfiyyətlərinə münasibət bildirir. Onların bəzilərini diqqət mərkəzinə gətirək:

1. Müəllim geniş məlumata malik olmalı, yüksək kamal səviyyəsində dayanmalı, öz fənnini yaxşı bilməlidir.
2. Şagirdləri təşkil və tərbiyə etməyi bacarmalıdır.
3. Öz yetirmələrinə qayğı və nəvazişlə yanaşmalı, onların sevincinə və kədərinə şərik ol-

malıdır.

4. Ciddi və tələbkar olmalı, lakin quru və sərt rəsmiyyətçilikdən kənarda durmalıdır.

5. Pedaqoji kollektivin üzvləri, şagirdlər və onların valideynləri, ictimaiyyət arasında öz nüfuzunu qorumağı bacarmalıdır.

6. Zəngin mənəviyyata yiyələnməli, davranış və rəftarı, ünsiyyət tərzi, geyimi və səliqəsi ilə nümunə göstərməlidir.

7. İctimai fəallıq vərdişlərinə malik olmalı, məktəbdə və cəmiyyətdə ictimaiyyətçi kimi özünü tanıtmalıdır.

8. Açıq fikirli, humanist və vətənpərvər olmalıdır.

9. Öz üzərində yorulmadan çalışmalı, geniş dünyagörüşünə yiyələnməli, pedaqogika və psixologiya, fiziologiya, məntiq, anatomiya və s. elmlərə dərindən bələd olmalıdır.

10. Yüksək ümumi və pedaqoji etika və mərifətə malik olmalıdır.

11. Öz fəaliyyətində dəqiq və ardıcıl olmalıdır.

12. Uşağın şəxsiyyətinə hörməti ağıllı tələbkarlıqla uzlaşdırmalıdır.

13. Uşağı hərtərəfli öyrənməlidir.

14. Şagirdin təlim işinə, davranışına istiqamət verməlidir və s. və i.a." (4, s. 318-319).

Bizim fikrimizcə, müəllim həm də metodik hazırlığa malik olmalıdır. Müəllim öz ixtisasını (coğrafiya, tarix, ədəbiyyat, Azərbaycan dili, riyaziyyat, fizika, kimya, biologiya və s.) yaxşı bilər, lakin mövzunu, mövzu ilə bağlı məsələləri şagirdlərə lazımi səviyyədə çatdırmaqda çətinlik çəkə bilər. Bu zaman, təbii ki, məktəbli oğlan və qızlar mövzunu mənimsəməyirlər. Odur ki, müəllimin öz üzərində işləməsi, metodik ədəbiyyatı izləməsi lazımdır. Tutaq ki o, riyaziyyat müəllimidir. Belə halda "Riyaziyyatın tədrisi metodikası" dərslik və ya dərs vəsaiti onun stolüstü kitabı olmalı, o, riyaziyyatın tədrisi metodikasına dair məqalələrlə, respublikamızda nəşr edilən "Məktəbdə fizika və riyaziyyatın tədrisi" jurnaının materialları ilə, fənnin tədrisinə aid yeniliklərlə müntəzəm tanış olmalı, metodik səriştəyə yiyələnməlidir. O zaman o səriştəli müəllim olacaq, ayrı-ayrı mövzuları tələb olunan səviyyədə tədris edəcək, şagirdlər materialı öyrənəcəklər.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi kollegiyası 6 noyabr 2014-cü il tarixdə "Müəllimlərin etik davranış qaydaları"nı təsdiq etmişdir. Hər bir müəllim, hər bir pedaqoji sahə işçisi həmin qaydalarla tanış olmalı, onları yerinə yetirməlidir. "Qaydalar"da öz ifadəsinin tapmış "Müəllim şəxsiyyəti" bölməsinə müraciət edək: "Müəllim:

"— təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edir, təhsil proqramlarının təhsilalanlar tərəfindən mənimsənilməsini təmin edir.

— təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırır, onları vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik ruhunda tərbiyə edir, müstəqil həyata və əmək fəaliyyətinə hazırlayır.

— əlavə təhsil və özünütəhsil yolu ilə ixtisasını, elmi-pedaqoji və peşəkarlıq səviyyəsini daim artırır, təhsilin nəticə və göstəriciləri üzrə araşdırma və təhlillər aparır, keyfiyyətin yüksəldilməsi və nailiyyətlərin əldə edilməsi üçün təkliflərlə çıxış edir.

— yenilikçidir, innovasiya və yeni tədris texnologiyalarını mənimsəyir və öz təcrübəsində tətbiq edir.

— ona həvalə edilmiş işin keyfiyyətinə və nəticələrinə görə və hər bir təhsilalanın intellektual, emosional, mənəvi inkişafı üçün məsuliyyət daşıyır.

— gənc nəslə milli və bəşəri dəyərləri aşılamaqla təhsilalanların mədəni inkişafı prosesində birbaşa iştirak edir.

— təhsilalanlara keyfiyyətli təhsil verməklə peşəsinə olan ictimai etimad və hörməti doğruldur.

— pedaqoji etika və əxlaq normalarına riayət edir, müəllim nüfuzunu yüksək tutur, ziyalılıq nümunəsi göstərir.

— şəxsi nümunəsi ilə təhsilalanlara Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissi aşılayır.

— təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşır, əsassız mühakimələrə yol vermir, obyektivlik və qərəzsizlik nümayiş etdirir" və s. (5).

Fənn müəllimi həm də bu və ya digər sinfin rəhbəridirsə eyni zamanda sinif rəhbərinə xas olan peşə və şəxsi keyfiyyətlərə yiyələnməlidir. Təlim-tərbiyə işlərini yüksək səviyyədə qurmaqdan ötrü ilk növbədə şagirdləri hərtərəfli öyrənməli, onların psixoloji və fərdi xüsusiyyətlərinə, temperament tiplərinə, cinsi fərqlərinə bələd olmalıdır. Şagirdin qeyd olunan xüsusiyyətlərini bilmədən uğurlu tərbiyə işləri aparmaq çətindir. Sinif rəhbəri məhz məktəbliləri qabaqcadan hərtərəfli öyrənməklə pedaqoji təsirlər sistemini müəyyənləşdirə bilər.

O, özünün pedaqoji fəaliyyətini "kim kimdir?" sualına cavab tapmaqdan ötrü şagirdlərin öyrənilməsindən başlayır. Bu öyrənmə prosesi işdə yol verilə biləcək qüsurların qarşısını kəsir.

Təhsilalanların fəaliyyətinin öyrənilməsi də lazımdır. Bu, emosional-psixi dünyasını, xarakterlərinin xüsusiyyətlərini daha yaxşı başa düşməyə şərait yaradır. Şagirdlərin məqsədyönlü öyrənilməsi fərdi yanaşmanın mühüm amilidir. Məktəbli şəxsiyyətinin özünəməxsusluğunu və onunla bağlı məlumatlara əsaslanmaqla iş aparmaq onu özünütərbiyəyə sövq edir.

Şagirdlərin öyrənilməsi sinfin səmərəli idarə edilməsinin mühüm şərtidir. İngilis pedaqoqu və filosofu, empirizm və liberalizmin nümayəndəsi Jon Lokk (1632-1704) hələ on yeddinci yüzillikdə yazırdı: "Uşaqlarla təmasda olan kəslər son dərəcə əsaslı şəkildə onların təbiətini və qabiliyyətlərini öyrənməli, onların asanlıqla hansı səmtə meylləndiyini, onlara kimin yanaşdığını izləməli, onların anadangəlmə əlamətlərinin nədən ibarət olduğunu, onları necə təkmilləşdirməyin mümkünlüyünü, onların nəyə qadir olduğunu bilməlidirlər".

XIX əsrdə Rusiyada elmi pedaqogikanın banisi, pedaqoq və yazıçı K.D. Uşinski (1823-1874) yazırdı: Əgər pedaqogika insanı hər cəhətdən tərbiyə etmək istəyirsə, o əvvəlcə insanı hər cəhətdən də öyrənməlidir" (6, s. 86).

Burada görkəmli pedaqoq, təbii ki, pedaqogika deyəndə - müəllimi, tərbiyəçini, valideyni, insanı deyəndə, uşağı, təhsilalanı nəzərdə tuturdu.

Sinif rəhbəri tərbiyənin prinsiplərindən xəbərdar olmalı, onları rəhbər tələblər kimi nəzərə almalıdır. Həmin prinsiplərə daxildir: tərbiyədə məqsəd aydınlığı prinsipi, tələblərdə vahidlik prinsipi, sözlə əməlin vəhdəti prinsipi, şagirdlərin müsbət cəhətlərini nəzərə almaqla mənfi cəhətlərini aradan qaldırılması prinsipi, yaşauyğunluq prinsipi, şəxsiyyətə hörmət və tələbkarlıq prinsipi, şagirdlərin fərdi və cinsi xüsusiyyətlərinin nəzərə alınması prinsipi və s.

Müəllim *ədalətli* olmalıdır. Şagirdlər onun ədalətsiz hərəkətindən iztirab çəkməməli, müəllimə inamını itirməməlidirlər.

Müəllim *humanist* və *demokratik* olmalıdır.

Deyiləndən göründüyü kimi, müəllimin şəxsi və peşə keyfiyyətləri kamil olduqda o, səmərəli nəticələrə nail olur.

**Məqalənin aktuallığı.** Müəllimin şəxsi və peşə keyfiyyətlərinə dair tədqiqat və araşdırmalar həmişə olduğu kimi bu gün də aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə müəllimin şəxsi və peşə keyfiyyətləri diqqət mərkəzinə çıxarılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar üçün maraqlı olacaqdır.

## Ədəbiyyat

1. “Azərbaycan müəllimi” qəz., 2010, 10 dekabr, s. 4.
2. Prezident İlham Əliyev: Mən də müəllim olmuşam, ona görə bu peşə mənə yad deyil https://www.salamnews.ru/az/news/read/367092
3. 101 hədis: Həzrəti Məhəmməd əleyhissəlamın söylədikləri. Bakı: Gənclik, “Dan yeri” RNK-i., 1990.
4. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2015.
5. Müəllimlərin etik davranış qaydaları. Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının 6 noyabr 2014-cü il tarixli qərarı.
6. K.D. Uşinski. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1954.

**Л.А. Алиева**

## Личностные и профессиональные качества учителя

## Резюме

Учителю необходимо обладать набором личностных и профессиональных качеств. Именно любовь к школьникам следует считать важнейшей личностной и профессиональной чертой учителя, без чего не возможна эффективная педагогическая деятельность. Личность учителя в обстановке обучения занимает первое место, те или другие свойства его будут повышать или понижать воспитательное влияние обучения.

**L.A. Aliyeva**

## Personal and professional qualities of a teacher

## Summary

Every teacher must have a set of personal and professional qualities. It is love for pupils that should be considered the most important personal and professional trait of a teacher, without which effective pedagogical activity is impossible. The personality of the teacher in the learning environment takes the first place, one or another of its properties will increase or decrease the educational influence of learning.

**Redaksiyaya daxil olub:** 15.02.2021